**Aptekdə istifadə müddəti bitmiş qida məhsullarının aşkarlanmasına dair məlumat**

**(12 sentyabr 2023)**

Tədbirlər çərçivəsində Oğuz rayonu, Kərimli kəndində fəaliyyət göstərən "Zeytun Pharmaceuticals" MMC-yə məxsus aptekdə Agentlik əməkdaşları tərəfindən planlı yoxlama aparılıb. Yoxlama zamanı istifadə müddəti bitmiş müxtəlif sayda, müxtəlif əmtəə nişanlı uşaq qidası və bitki çayının satışının həyata keçirildiyi aşkarlanıb. Həmçinin sanitariya norma və qaydalarının, gigiyena normativlərinin pozulduğu müəyyən olunub. Faktla əlaqədar qanunvericiliyə uyğun olaraq istifadə müddəti bitmiş məhsulların satışı ilə bağlı məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə qərar qəbul edilib, sahibkarlıq subyekti inzibati məsuliyyətə cəlb olunub.